# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

## Auditorlar tərəfindən etik qaydalara əməl edilməsinə dair

## M O N İ T O R İ N Q   S İ S T E M İ


***İcraçılar:***

*Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi* — *Rövşən Cəfərli*

*Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəis müavini* — *Afiqə Bayramova*

*Haqsız rəqabətə qarşı mübarizə idarəsinin baş mütəxəssisi* — *Elfirida Hacızadə*

***Rəyçilər***

*Sərbəst auditor – Üzeyir Fətiyev*

*Sərbəst auditor – Şamxal Kərimov*



**BAKI - 2025**

**MÜNDƏRİCAT**

**GİRİŞ** ........ 3
**BÖLMƏ I. ÜMUMİ MÜDDƏALAR** ........ 4
**Fəsil 1. Monitorinq sistemində istifadə olunan anlayışlar** ........ 4
**Fəsil 2. Monitorinq sisteminin məqsədi və vəzifələri** ........ 6
**BÖLMƏ II. Monitorinqin aparılması prosedurları** ........ 7
**Fəsil 3. Monitorinq sisteminin təşkili** ........ 7
**Fəsil 4. Monitorinqin aparılması prosedurları və qiymətləndirmə** ........ 9
**Fəsil 5. Etik monitorinqin həyata keçirilməsi qaydaları** ........ 11
**BÖLMƏ III. YEKUN MÜDDƏALAR** ........ 13
**Fəsil 6. Sənədin təsdiqi, tətbiqi, yenilənməsi və hesabatlılıq** ........ 13

# GİRİŞ

Auditor fəaliyyətində mühüm əhəmiyyət kəsb edən etik prinsiplərin qorunması yalnız peşəkar tələbat deyil, eyni zamanda ictimai etimadın əsas şərtidir. Auditorlar tərəfindən etik normaların pozulması maliyyə hesabatlarının etibarlılığına, investorların və cəmiyyətin ümumi inamına ciddi zərbə vurur və nəticədə şəffaflığın artırılmasına mənfi təsir göstərir.

Auditorlar tərəfindən etik qaydalara əməl edilməsinin monitorinqi beynəlxalq standartlara uyğun auditor xidmətlərinin potensial pozuntularının vaxtında aşkarlanması, qarşısının alınması və müvafiq cəza tədbirlərinin görülməsi üçün təsirli alət kimi çıxış edir.

Təqdim olunan monitorinq sistemi auditorlar arasında etik qaydalara əməl edilməməsi hallarının qarşısının alınması məqsədilə monitorinq sisteminin yaradılması və tətbiqi məsələlərini hərtərəfli təhlil edir. Burada Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin əsas prinsipləri, onların praktiki tətbiqi nümunələri, pozuntu halları və bu hallara qarşı məsuliyyət mexanizmləri araşdırılır. Eyni zamanda risk əsaslı monitorinq, şikayət və bildiriş sistemlərinin formalaşdırılması, beynəlxalq və yerli qanunvericiliyin tələbləri əsasında təkmilləşdirmə təklifləri irəli sürülür.

Bu sistemin aktuallığı ondan ibarətdir ki, iqtisadi şəraitin mürəkkəbləşdiyi, maliyyə bazarlarının çevikliyinin və dinamikasının artdığı indiki dövrdə auditorların davranış etikası yalnız fərdi məsələ deyil, ümumi iqtisadi təhlükəsizliyin, şəffaflığın və ictimai etimadın qorunması üçün strateji əhəmiyyət daşıyır. Praktiki tövsiyələr təqdim edərək auditorlar üçün tətbiq edilə bilən bu sənəd auditor peşəsində şəffaflıq, məsuliyyət və etik davranış mədəniyyətinin daha da gücləndirilməsinə töhfə vermək məqsədi daşıyır. Əminik ki, təqdim olunan materiallar audit şirkətləri və sərbəst auditorlar üçün praktik dəyərə malik olacaq, etik prinsiplərin qorunması və peşəkar fəaliyyətin təkmilləşdirilməsi istiqamətində etibarlı yol xəritəsi rolunu oynayacaqdır.

## BÖLMƏ I. ÜMUMİ MÜDDƏALAR

### Fəsil 1. Monitorinq sistemində istifadə olunan anlayışlar

1.1. Bu sistemdə istifadə olunan əsas anlayışlar:

1.1.1. Palata — Azərbaycan Respublikasının Auditorlar Palatası;

1.1.2. Şura — Azərbaycan Respublikasının Auditorlar Palatasının Şurası;

1.1.3. Auditor — Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq peşəkar auditor fəaliyyətini həyata keçirməyə səlahiyyəti olan auditor təşkilatı və ya sərbəst auditor;

1.1.4. Monitorinq fəaliyyətini həyata keçirən monitorinq qrupu:

1.1.4.1. Məsul şəxslər — idarə, komissiya, komitə.

1.1.4.2. İdarə — Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsi;

1.1.4.3. Komissiya — Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası;

1.1.4.4. Komitə — Auditorlar Palatasının Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə.

1.1.5. Etika Məcəlləsi — İESBA tərəfindən nəşr edilmiş Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə);

1.1.6. Etik monitorinq — auditorların etik prinsiplərə əməl etmə səviyyəsinin qiymətləndirilməsi, pozuntu hallarının aşkarlanması və qarşısının alınması üzrə həyata keçirilən nəzarət fəaliyyəti;

1.1.7. Etik pozuntu — auditorun fəaliyyətində Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsində nəzərdə tutulan prinsiplərin (müstəqillik, tamlıq, obyektivlik, peşəkar səriştə və yetərli diqqət, məxfilik, peşəkar davranış) pozulması;

1.1.8. Etik monitorinq — etik davranış qaydalarına əməl olunması vəziyyətinin sistemli şəkildə öyrənilməsi, təhlili və qiymətləndirilməsi prosesi;

1.1.9. Müstəqillik prinsipi — auditorun hər hansı maraq toqquşmasından uzaq, qərəzsiz və obyektiv fəaliyyət göstərməsi tələbi;

1.1.9.1. Düşüncə müstəqilliyi — peşəkar mühakiməyə mane olacaq heç bir təsirə məruz qalmadan nəticəni ifadə etməyə, bununla da şəxsə dürüst davranmağa, obyektiv olmağa və peşəkar inamsızlıq tətbiq etməyə imkan verən düşüncə tərzi.

1.1.9.2. Hərəkət müstəqilliyi — məntiqli və məlumatlı üçüncü tərəfin (şirkətin) və ya auditorların tamlığına, obyektivliyinə və ya peşəkar inamsızlığına xələl gətirməsi qənaətinə gələcək dərəcədə əhəmiyyətli fakt və şəraitlərdən kənar olması.

1.1.10. Tamlıq prinsipi — auditorun bütün fəaliyyətində dürüstlük nümayiş etdirməsi və həqiqəti təhrif etməməsi öhdəliyi.

1.1.11. Obyektivlik prinsipi — auditorun qərar və rəylərində qərəzsiz davranması və şəxsi maraqların təsirindən yayınması öhdəliyi.

1.1.12. Peşəkar səriştə və yetərli diqqət prinsipi — auditorun işini lazımi biliyə əsaslanaraq, diqqətli və peşəkar şəkildə yerinə yetirməsi öhdəliyi.

1.1.13. Məxfilik prinsipi — auditorun peşə fəaliyyəti zamanı əldə etdiyi məlumatların üçüncü şəxslərə açıqlanmaması öhdəliyi;

1.1.14. Peşəkar davranış prinsipi — auditorun peşənin nüfuzuna xələl gətirməyən, qanun və etik qaydalara uyğun davranması öhdəliyi.

1.2. Monitorinq sistemi aşağıdakı beynəlxalq və milli sənədlərə əsaslanır:

1.2.1. Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)”;

1.2.2. Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) nəşr etdiyi Beynəlxalq Audit Standartları (BAS);

1.2.3. Azərbaycan Respublikasının “Auditor xidməti haqqında” Qanunu və digər müvafiq normativ-hüquqi aktlar;

1.2.4. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının qərarları və sədrin sərəncamları.

1.2.5. Palata Şurası tərəfindən qəbul olunmuş sənədlər.

## Fəsil 2. Monitorinq sisteminin məqsədi və vəzifələri

2.1. Monitorinq sisteminin məqsədi — auditorların fəaliyyətində *Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)* tələblərinə, müstəqillik, obyektivlik, tamlıq, peşəkar səriştə və yetərli diqqət, məxfilik və peşəkar davranış prinsiplərinə əməl olunmasına nəzarəti təmin etmək və etik pozuntuların qarşısının alınması üçün səmərəli monitorinq sisteminin tətbiqini təşkil etməkdir.

2.2. Monitorinq sisteminin əsas vəzifələri aşağıdakılardır:

2.2.1. Auditorların etik davranış prinsiplərinə əməl etmə səviyyəsini müəyyənləşdirmək;

2.2.2. Etik tələblərin pozulması hallarını vaxtında aşkarlamaq və aradan qaldırmaq;

2.2.3. Etik maarifləndirmə tədbirləri keçirməklə etik riskləri minimuma endirmək;

2.2.4. Etika Məcəlləsinin tələblərinin pozulması hallarını təhlil etmək, təkliflər hazırlamaq və bu barədə rəhbərliyə hesabat təqdim etmək;

2.2.5. Auditorların etik davranış mədəniyyətini, ictimai etimadı gücləndirmək və peşə nüfuzunun qorunmasına nail olmaq.

## BÖLMƏ II. Monitorinqin aparılması prosedurları

### Fəsil 3. Monitorinq sisteminin təşkili

3.1. Monitorinqin aparılması auditorların fəaliyyətində etik prinsiplərə əməl edilməsinin təhlili və qiymətləndirilməsi məqsədilə Palata tərəfindən həyata keçirilir.

3.2. Monitorinqin təşkili və aparılması idarə tərəfindən həyata keçirilir.

3.3. İdarə:

3.3.1. Auditorlar arasında etik normalara riayət olunması vəziyyətinin mütəmadi monitorinqini aparır;

3.3.2. Etik pozuntu barədə daxil olmuş müraciət, şikayət və məlumatları təhlil edir və ilkin araşdırma aparır;

3.3.3. Etik monitorinq üzrə bildirişlərin göndərilməsini, sənədlərin toplanmasını və emalını təmin edir;

3.4. Etik monitorinq daxil olmuş müraciət və şikayət, habelə risk əsaslı yanaşma və dövri monitorinq prinsipləri əsasında həyata keçirilir. Etik risk amillərinə aşağıdakılar aid edilir:

3.4.1. Auditorun əvvəlki fəaliyyətində etik prinsiplərin pozulması barədə məlumatların mövcudluğu;

3.4.2. Müstəqillik prinsiplərinə əməl olunmaması ehtimalı;

3.4.3. Auditorun fəaliyyətində maraqlar toqquşmasının yaranma riski;

3.4.4. Peşə davranışı və məxfilik tələblərinin pozulması barədə daxil olmuş şikayətlər;

3.4.5. Peşəkar reputasiyaya zərər vura biləcək davranış halları.

3.5. Etik monitorinq aşağıdakı məqsədləri həyata keçirməyə xidmət edir:

3.5.1. Auditorların fəaliyyətində Etika Məcəlləsinin prinsiplərinə əməl edilmə səviyyəsinin qiymətləndirilməsi;

3.5.2. Etik davranışla bağlı potensial riskləri aşkar etmək və onların qarşısını almaq;

3.5.3. Etik pozuntu halları baş verdikdə, onların səbəblərini və nəticələrini təhlil etmək;

3.5.4. Auditorların etik bilik və bacarıqlarını artırmaq məqsədilə təkliflər hazırlamaq;

3.6. Etik monitorinq risk əsaslı və ya şikayət əsasında həyata keçirilir:

3.6.1. Monitorinqlər etik pozuntu barədə şikayət, məlumat və ya ictimai əhəmiyyət kəsb edən hallar üzrə Palata rəhbərliyinin qərarı ilə həyata keçirilir.

3.7. Etik monitorinq barədə auditor 3 gün müddətində məlumatlandırılır.

3.8. Auditor etik monitorinq zamanı tələb olunan sənədləri təqdim etməyə, izahat verməyə və əməkdaşlıq etməyə borcludur.

3.9. Auditor tərəfindən etik monitorinqin aparılmasına maneçilik törədildikdə və ya tələb olunan məlumatlar təqdim edilmədikdə, idarə tərəfindən imtina barədə akt tərtib edilir və nəticədə, pozuntunun etiraf edilməsi kimi qiymətləndirilir.

3.10. Etik monitorinqin keçirilməsi nəticəsində əldə edilmiş məlumatlar konfidensial hesab olunur və yalnız xidməti məqsədlərlə istifadə edilə bilər. Məsul şəxslər əldə olunmuş məlumatların üçüncü şəxslərə bildirilməsinə (ötürülməsinə) görə konfidensiallıq üçün bəyannaməyə imza atırlar və məsuliyyət daşıyırlar.

3.11. Etik monitorinqin nəticələri üzrə tərtib edilmiş hesabatda aşağıdakı məsələlər əks olunur:

3.11.1. Monitorinqin aparılması üçün əsas;

3.11.2. Yoxlanılan auditor barədə məlumat;

3.11.3. Yoxlayıcı barədə məlumat;

3.11.4. Təqdim olunan sənədlərin siyahısı;

3.11.5. Aşkar edilmiş etik pozuntular;

3.11.6. Etik davranışın təkmilləşdirilməsi ilə bağlı təkliflər.

## Fəsil 4. Monitorinqin aparılması prosedurları və qiymətləndirmə

4.1. Monitorinq sistemi aşağıdakı mərhələlərdən ibarətdir:

I mərhələ – İlkin məlumatların toplanması və risklərin qiymətləndirilməsi

4.1.1. Auditorun fəaliyyəti barədə ilkin məlumatların və etik risk faktorlarının təhlili aparılır;

4.1.2. Əvvəlki etik monitorinq tədbirlərinin nəticələri və auditor haqqında daxil olmuş şikayətlər öyrənilir;

4.1.3. Auditorun fəaliyyət sahəsi, müştəri portfeli, əməkdaşlıq əlaqələri və müstəqillik meyarları nəzərdən keçirilir.

II mərhələ – Etik davranış prinsiplərinə əməl olunmasının təhlili

4.1.4. Auditorun etik prinsiplərə əməl etməsi sənədlərlə və araşdırma yolu ilə qiymətləndirilir;

4.1.5. Auditorun peşəkar qərarlarında obyektivlik və qərəzsizlik səviyyəsi araşdırılır;

4.1.6. Auditorun sifarişçilərlə münasibətlərində müstəqillik və məxfilik tələblərinə riayət olunması yoxlanılır;

4.1.7. Auditorun işçi heyətinin etik maarifləndirilməsi və peşə davranışına dair daxili qaydalar təhlil edilir.

III mərhələ – Auditorun izahatı və dəyərləndirmə

4.1.8. Auditordan və ya səlahiyyətli nümayəndəsindən etik davranışla bağlı izahat alınır;

4.1.9. Auditorun təqdim etdiyi məlumatlar və izahatlar əsasında qiymətləndirmə aparılır;

4.1.10. Aşkarlanmış etik risklərin təsir dərəcəsi və səbəbləri müəyyən edilir.

IV mərhələ – Nəticələrin sənədləşdirilməsi və tövsiyələr

4.1.11. Etik monitorinqin nəticələri üzrə yekun hesabat tərtib olunur;

4.1.12. Hesabatda etik prinsiplərə əməl olunma səviyyəsi, aşkarlanmış pozuntu hallarının mahiyyəti və təkmilləşdirmə tədbirləri göstərilir;

4.1.13. Auditorun etik davranışını yaxşılaşdırmaq məqsədilə tövsiyələr və tədbirlər planı hazırlanır;

4.1.14. Etik monitorinqin nəticələri barədə məlumatlar Şuraya və ya Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası təqdim edilir.

4.2. Etik monitorinqin nəticələrinin qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə aparılır:

A (Yüksək səviyyə — 90-100 bal) – Auditor bütün etik prinsiplərə tam əməl etmiş, pozuntu halları aşkar olunmamışdır;

B (Qənaətbəxş səviyyə — 75-89 bal) – Auditor etik prinsiplərə əsasən riayət etmiş, yalnız əhəmiyyətsiz nöqsanlar mövcuddur;

C (Qismən qənaətbəxş — 60-74 bal) – Auditorun fəaliyyətində bəzi etik prinsiplərin pozulması və ya etik risklərin yüksək olması müəyyən edilmişdir;

D (Qeyri-qənaətbəxş — <60 bal) – Auditor etik prinsiplərin tələblərinə əməl etməmiş və pozuntu halları aşkar olunmuşdur.

4.3. Etik monitorinqin nəticələri üzrə idarə tərəfindən hazırlanmış tədbirlər planı hesabat təqdim edildiyi tarixdən 1 ay müddətində Şuraya təqdim edilir. Tədbirlər planında etik pozuntuların aradan qaldırılması və etik davranışın yaxşılaşdırılması üzrə konkret addımlar göstərilməlidir.

4.4. Auditor tərəfindən müəyyən edilmiş müddətdə tədbirlər planı təqdim edilmədikdə və ya icrası təmin olunmadıqda, Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası məsələni Şurada müzakirəyə çıxarır və zəruri hallarda intizam tədbirləri barədə qərar qəbul edilir.

4.5. Təsdiq edilmiş qərardan auditor 15 gün ərzində Şuraya apellyasiya şikayəti verə bilər.

## Fəsil 5. Etik monitorinqin həyata keçirilməsi qaydaları

5.1. Etik monitorinqin həyata keçirilməsi qaydaları auditorların fəaliyyətində etik prinsiplərə əməl olunmasının təmin edilməsi, etik pozuntuların vaxtında aşkarlanması və aradan qaldırılması məqsədilə tətbiq olunur.

5.2. Etik monitorinq zamanı aşağıdakı prinsiplər əsas götürülür:

5.2.1. Qanunçuluq – bütün monitorinq tədbirləri Azərbaycan Respublikasının qanunvericiliyinə və Palatanın normativ sənədlərinə uyğun aparılır;

5.2.2. Obyektivlik – auditor barədə qərarlar yalnız faktlara, sənədlərə və sübutlara əsaslanır;

5.2.3. Məxfilik – monitorinq nəticəsində əldə edilən məlumatlar yalnız xidməti məqsədlərlə istifadə olunur;

5.2.4. Ədalətlilik – auditorun mövqeyini izah etmək və təqdim etmək imkanı təmin edilir;

5.2.5. Peşəkarlıq – monitorinq prosesində yalnız müvafiq təcrübəyə malik əməkdaşlar iştirak edir.

5.2.6. Müstəqillik – auditorun peşəkar qərar və fəaliyyətinə heç bir xarici təsir və ya maraq müdaxilə etmir;

5.2.7. Tamlıq – auditor araşdırdığı məlumat və sənədləri bütöv şəkildə, heç nəyi gizlətmədən və dəyişdirmədən qiymətləndirir.

5.3. Etik monitorinqin aparılmasına dair sənədlər 5 iş günü ərzində təqdim edilməlidir. Bu zaman aşağıdakı sənədlər tələb oluna bilər:

5.3.1. Auditorun etik davranışa dair daxili qaydaları və təlimatları;

5.3.2. Audit müqavilələri və sifariş sənədləri;

5.3.3. Etik risklərin qiymətləndirilməsinə dair daxili hesabatlar;

5.3.4. Auditorların peşəkar müstəqillik barədə bəyanatları;

5.3.5. Auditor tərəfindən təqdim edilən etik maarifləndirmə tədbirlərinə dair sənədlər;

5.4. Etik monitorinqin nəticələri yazılı “Etik Monitorinq Hesabatı” formasında rəsmiləşdirilir. Hesabatda aşağıdakılar göstərilir:

5.4.1. Monitorinqin keçirilmə tarixi, obyekti və məqsədi;

5.4.2. Auditorun fəaliyyətində etik prinsiplərə əməl olunma səviyyəsi;

5.4.3. Aşkarlanmış etik pozuntu halları və onların təsiri;

5.4.4. Auditorun izahatları və təqdim etdiyi əlavə məlumatlar;

5.4.5. Təklif olunan tədbirlər və tövsiyələr.

5.5. Etik monitorinqin nəticələri Şurada və ya Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyasında müzakirə olunur. Etik pozuntu təsdiq olunduqda, müvafiq intizam tədbirləri tətbiq edilir.

5.6. Etik pozuntunun xarakterindən və ağırlıq dərəcəsindən asılı olaraq aşağıdakı intizam tədbirləri tətbiq edilə bilər:

5.6.1. Xəbərdarlıq, sonuncu xəbərdarlıq edilməsi və izahat tələb olunması;

5.6.2. Töhmət və ya şiddətli töhmət verilməsi barədə rəhbərlik qarşısında məsələ qaldırılması;

5.6.3. İcazənin müvəqqəti dayandırılması;

5.6.4. İcazənin ləğvi barədə rəhbərlik qarşısında məsələ qaldırılması.

5.7. Etik monitorinqin nəticələrinə əsasən auditorun etik davranışının yaxşılaşdırılması məqsədilə təlim, seminar və maarifləndirmə tədbirləri təşkil olunur.

5.8. Etik monitorinq üzrə ümumiləşdirilmiş məlumatlar illik analitik hesabat formasında Auditorlar Palatasının Şurasına təqdim edilir. Bu hesabatda il ərzində aşkarlanmış etik pozuntuların növləri, səbəbləri, tətbiq olunan tədbirlər və etik mədəniyyətin inkişaf tendensiyaları təhlil olunur.

## BÖLMƏ III. YEKUN MÜDDƏALAR

### Fəsil 6. Sənədin təsdiqi, tətbiqi, yenilənməsi və hesabatlılıq

6.1. Sənədin tətbiqi Haqsız rəqabətə qarşı mübarizə idarəsi, Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası, eləcə də Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə tərəfindən təmin olunur.

6.2. Sənədin yenilənməsi və ya dəyişdirilməsi zərurəti yarandıqda, təkliflər Haqsız rəqabətə qarşı mübarizə idarəsi tərəfindən hazırlanır və Şuranın müzakirəsinə təqdim olunur.

6.3. Sənədin yenilənməsi beynəlxalq standartlarda və milli qanunvericilikdə baş verən dəyişikliklər, həmçinin etik monitorinq təcrübəsinin nəticələri nəzərə alınmaqla həyata keçirilir.

6.4. Etik pozuntu hallarının təkrarlanması və ya aradan qaldırılmaması auditorun peşəkar nüfuzuna mənfi təsir göstərən amil hesab edilir və bu barədə məlumat Palatanın müvafiq reyestrində qeyd olunur.

6.5. Etik monitorinq tədbirlərinin nəticələri barədə məlumatlar yalnız rəsmi məqsədlərlə istifadə edilir, kommersiya və şəxsi maraqlar üçün açıqlanmasına yol verilmir.

6.6. Sənədin qüvvədə olduğu müddətdə onun müddəalarının icrası üzrə hesabatlar hər il Palatanın illik fəaliyyət hesabatına daxil edilir.